## Cəmil Əkbər

### Bəsimdir*

İlahi verdiyin paya çox şükür,
Dövlətdi, sərvətdi, vardı bəsimdir.
Çörəyə çox şükür, çaya çox şükür,
Qohumdu, qardaşdı, yardı bəsimdir.

Mən həsrət deyiləm özgə dağlara,
Özgə bağçalara, özgə bağlara,
Özgə bostanlara, özgə tağlara,
Almadı, heyvadı, nardı bəsimdir.

Qailəm nə versən qənaətinə,
İnsaf-mürvətinə, kəramətinə,
Hatəm mərhəmətli səxavətinə,
Namusdu, qeyrətdi, ardı bəsimdir.

Meylimi salmadım tamaha sarı,
Xətaya, bəlaya, günaha sarı,
Baxmışam uğurlu sabaha sarı,
Haqdan nəsib ayran, şordu bəsimdir.

Fatehi deyiləm qoca dünyanın,
Əfsanə dünyanın, beca dünyanın,
Bəzirgan dünyanın, xoca dünyanın,
Mənzil, məskan gendi, dardı bəsimdir.

Heçkəsə küsənib darılmamışam,
Özgə tərlanına vurulmamışam,
İçimdən çatlayıb qırılmamışam,
Özümün şahinim vardı, bəsimdi.

Vicdana, məsləkə dönük deyiləm,
Hər səmtə, üztutan yönük deyiləm,
İlqara, imana sönük deyiləm,
Sinəmdə alovdu, qordu bəsimdir.

Xudanın verdiyi nemətə şükür,
Mənə yetirdiyi diqqətə şükür,
Məzmuna, mənaya, hikmətə şükür,
Qüvvədi, qüdrətdi zordu bəsimdir.

Özgə gözəllərdə gözüm olmadı,
Eşqinə yanmağa lüzum olmadı,
Ay *Cəmil*, söhbətim, sözüm olmadı,
Sevgilim keçəldi, kordu bəsimdir.

*Azerbaycan Türkçesinde *"olsun, ne zarar, kabulümdür"* anlamına gelmektedir.